# Torpaq sizi səsləyir

(Əvvəli 7-ci səhifədə).

zin bütün bölgələrindən idi... Bəlkə də, faktiki deyə bilməsək də, qarabağlılardan daha çox başqa bölgələrin vətənpərvər gəncləri idi döyüşən oğullar. Çünki Vətəni bölgələrə bölərək döyüşə gedməmişdi onlar. Azərbaycan oğulları kimi döyüşmüşdü gənclərimiz ! Qaçqın, məcburi köçkün, məğlubiyyət sözlərini xalqımızın, millətimizin ana dilinin lüğətindən silmək, tarixi yenidən yazmaq üçün döyüşmüşdülər igidlərimiz ! Ali Baş Komandanımızın ətrafında Qisas müharibəsinə qoşulmuşdular ki, şəhid ruhlarının narahatçılığına son qoyulsun !

**Torpaqlarda yaşanmasa torpaq Vətən olarmı?**

Torpaq həyat deməkdir. Yaranışların əzəlidir. Torpaq canlı olan hər məfhumun can qaynağıdır. Yer üzündəki müharibələr məhz torpaqların mənimsənilməsi uğrunda deyilmi?! Torpaq ərazidir, məkandır. Torpaq hər kəsin doğulduğu məkan mənasında onun Vətənidir - Daşı ilə, qayası ilə, suyu, havası ilə, gündüzü, gecəsi ilə... Əgər o məkanda canlı aləm varsa - Vətəndir. Əlalxüsus, bəşəriyyətin əşrəfi olan insanlaın məskənidir Vətən. Əgər o torpaqda insan yaşarsa, cənnət olar, Vətən olar.

30 il əsarətdə qalan, doğmalarının toxunuşuna, nəfəsinə həsrət qalan torpaq "Vətən" olmaq istəyir. Mənfur düşmənlərin xarabalığa çevirdiyi kəndlər, qəsəbələr, şəhərlər 30 il əsarətdə qaldı, 5 ildir ki, "nəfəs" alırrahat - rahat, həsrət qoxulu bu nəfəs...

**Qurunun oduna yaş da yanar...**

Son günlər sosial səhifələrdə jurnalist Səidə Bəkirqızının adı çox hallanır. Onun məcburi köçkünlər və qaçqınlar haqda dedikləri ictimaiyyət tərəfindən birmənalı qarşılanmamışdır. Həyat belədir, qurunun oduna yaş da yanar və bu yanğı da çox ağır olar ! Öz vicdanının səsinə qulaq asmadan edilən hər hərəkət başqalarına qıcıq verər, qalmaqallara səbəb olar. Torpaqlarında köçkün düşənlər Azərbaycanın demək olar ki, bütün bölgələrində, əlalxüsus böyük şəhərlərdə belə məskunlaşmışlar. Yadımdaır o illər - yataqxanalarda, bina evlərinin lap alt mərtəbələrində, çadır şəhərlərində, bəzi idarə binalarında məskunlaşmışdı onlar. Bir çoxları isə qapısı bağlı, təmirli, təmirsiz evləri zəbt edərək məskunlaşmışdılar. Çətinlikləri çox olmuşdu hər bir ailənin. Ancaq 30 il müddətində çoxları özünə şərait yaratmış, evlər tikmiş, bir sözlə, insan yaşamı üçün lazım olan şəraiti yaratmışlar. Öz doğma ocağından köçkün düşənlərin 90 faizi həmişə deyərdi ki, torpaqlarımız alınsa, biz öz yurdumuza köçəcəyik. Ancaq deyilənə görə, indi onlar və onların övladları o torpaqlara köçməyi, orada məskunlaşmağı düşünmürlər. Ancaq hər bir vətəndaşın ölkə daxilində, hər yerdə yaşamaq hüququnun olmasına rəğmən, onlar öz doğma torpaqlarına qaytarılacaqlar. Dövlətimiz tərəfindən onlara verilən imtiyazlar öz qüvvəsini itirən kimi, boş qalan o torpaqlarda yaşayanların imtiyazları qüvvədə olan kimi hər kəs öz doğma elinə qayıdacaqdır. Yağı tapdağından azad olan torpaqlarda bastırılan minalar zərərsizləşdirildikdən sonra o soydaşlarımız özləri öz məkanlarında daha yaraşıqlı evlər tikəcək, məkanlar salacaqlar. Və bu həm də dövlətin dəstəyilə olacaq. Biz bu gün bu dəstəyi görürük Haqqı olmayan köçkünlərin danışıq səviyyəsi də o zaman öz qaydasına düşəcək. Dövlətimiz bütün azərbaycanlıların dövlətidir, xalqımız da igid bir xalqdır, onu bölgələrə, yerli - qaçqın kimi sistemləşdirmək olmaz. Əgər müharibə, döyüşlər zamanı "gizlənənlər" olubsa, Allahın Dərgahından gizli qala bilməzlər. Torpaqlarımız uğrunda döyüşən həm qarabağlı, həm şirvanlı, həm cənublu, həm qərb zonasından - hamısı igid oğullarımız olmuşdur və tariximizi yenidən yazmışlar. Bu gün şəhid olan igidlərimizin ailələri, sağlamlığını itirən qazilərimiz qaçqın və məcburi köçkün olan, təmir və bərpa işləri apardıqları o evlərdə halal-halal yaşamalıdırlar, istər Qarabağ bölgəsində, istərsə də başqa bölgələrdə. Öz qanı ilə, canlı şəhidlik qazanmaları ilə bu halallığı qazanmışdır onlar! Ancaq səbr və təmkinlə hərəkət edək və o insanların da öz ocaqlarına köç etmələrini gözləyək. Ölkə rəhbərliyinin Qarabağ bölgəsində apardığı quruculuq işləri bütün bu qalmaqallara son qoymaq üçün əyani sübutdur !

**Torpaqların səsi**

35 il əvvəl yağmalanan, yandırılan, faciələr şahidi olan, sinəsində düşmən tapdağının ağırlığından, hər qarışına axan şəhid, qazi qanlarının əzabından inləyirdi o torpaqlar... Ancaq tökülən qanlar "dəyərsizləşdi" - məğlubiyyət sənədi ilə. Torpaqlarımızın 20 faizi işğalda qaldı. 30 il sonra yağı tapdağından təmizləndi, narahat ruhlar sakitləşdi. Torpaqlarımız azad nəfəs aldı. İndi onların səsi - Zəfər qoxulu, nikbin notlu. Torpaq səsi küləklərlə dünyaya yayılır... Ölkəmizdə və ölkəmizdən kənarda, mühacirətdə belə olan məskunlarını səsləyir. Səsləyir ki, Vətəni Vətən edən şəhadət yolçularının, qazi övladlarımızın qanı ilə sulanan o torpaqlar yenidən dünyanın dilbər guşələrinə çevirsinlər. Öz doğmaları öz ocaqlarını yandırsınlar. Vahid Azərbaycan dövləti öz yenilməz gücü ilə bütün dünyaya səs salsın !

**Bibixanim İSAYEVA,**
**"Qəbələ səsi"**

# Dil öyrənilməsində süni intellekt əsaslı tətbiqlərin rolu




Hümbətova Gülnar Nəsir qızı 25 iyun 1987-ci ildə Qəbələ rayonunda anadan olub. Qəbələ rayon Nicat Apayev adına 4 saylı orta məktəbdə orta təhsil (1993-2004), Gəncə Dövlət Universitetində ali təhsil (2004 - 2008) alıb. Universiteti bitirdikdən 1 il sonra doğma rayonunda bitirdiyi məktəbdə ingilis dili müəllimi işləməyə başlayıb və indiyədək burada müəllimlik etməkdədir. Ailəlidir, 3 övladı var. Müəllimliklə yanaşı o psixologiya və fəlsəfə elmlərinə böyük maraq göstərir.

Müəllim sertifikatlaşdırma imtahanın da 51 bal toplayaraq yüksək nəticə göstərmişdir. Gülnar müəllimin yerli və ölkə mətbuatında təhsillə bağlı bir çox yazıları işıq üzü görmüşdür. Təhsilin magistr pilləsi üçün olan "Monitorinq və Qiymətləndirmənin ölçülər nəzəriyyəsi" kitabının həmmüəllifidir.

Təhsildə innovativ metodların tətbiqi həm müəllimlər, həm də şagirdlər üçün öyrənmə prosesini daha maraqlı və effektiv edir və son illərdə süni intellekt (Sİ) texnologiyalarının sürətli inkişafı təhsil sahəsində köklü dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə dil öyrənmə prosesinində (Sİ) əsaslı tətbiqlər fərdi yanaşma, interaktivlik və effektivlik baxımından yeni imkanlar yaratmışdır. Dil öyrənməsində süni intellektdən istifadənin həm üstünlükləri, həm də qarşıya çıxan çətinlikləri var. Bundan əlavə süni intellekt dil öyrənmə prosesinə müxtəlif yollarla inteqrasiya olunur. Məsələn, tələbələr 24/7 rejimində chat bootlarla danışaraq dil bacarıqlarını inkişaf etdirə bilirlər. Bu alətlər real vaxtda düzəlişlər və tövsiyələr təqdim edir. Və ya Sİ əsaslı tətbiqlər istifadəçinin tələffüzünü analiz edərək, səhvləri müəyyən edir və düzəlişlər təklif edir. Bunlarla yanaşı, Sİ istifadəçinin zəif və güclü tərəflərini analiz edərək ona uyğun öyrənmə strategiyası hazırlayır. Dil maneələrini aradan qaldırmaq üçün, real vaxtda tərcümə və izah imkanları təqdim olunur. Bundan əlavə günümüzdə Dualingo, Rosetta Stone, Chat GPT və digər dil modelləri kimi məşhur Sİ tətbiqləri vardır ki, onlar hər bir şagirdə uyğun öyrənmə yolu təklif edir, interaktivlik və oyunlaşdırma elementləri öyrənməni maraqlı edir. Sİ coğrafi və zaman məhdudiyyətləri olmadan öyrənmə imkanı verir. Və hətta, real vaxtda səhvlərin düzəldilməsi və izahı olur ki, buda öyrənməni sürətləndirir. Ancaq, Sİnin üstünlükləri ilə yanaşı çətinlikləri və məhdudiyyətləridə vardır ki, mədəni və kontekstual uyğunsizluğu, texnoloji asılılığı məxfilik və məlumat təhlükəsizliyini buna misal göstərə bilərik.

Hər halda süni intellekt dil öyrənməsində inqilabi dəyişikliklərə səbəb olmuşdur. Bu texnologiyalar öyrənmə prosesini daha əlçatan, maraqlı və effektiv edir. Lakin, onların istifadəsi zamanı etik və texnoloji məsələlərə diqqət yetirilir. Sonda belə bir məsləhət vermək istərdim ki, müəssisələri və müəllimlər bu alətləri tədrisə inteqrasiya edərkən balanslı və məqsədyönlü yanaşma sərgiləsinlər.

**"Qəbələ səsi"**

# Ümumdünya poçt günü

Ümumdünya Poçt Günü Ümumdünya Poçt İttifaqının (ÜPİ) XIV konqresinin qərarı ilə 1874-cü ildə İsveçrənin paytaxtı Berndə yaradılıb. Bu tarix 1969-cu ildə Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilən ÜPİ-nin konqresində elan olunub.




Azərbaycanın 1993-cü ilin aprel ayında bu quruma üzv qəbul olunması respublikanın poçt sahəsi üzrə fəaliyyətinin genişlənməsinə əlavə imkanlar yaradıb. Müstəqil ölkə kimi ÜPİ üzvü olduğu qısa zaman ərzində Azərbaycan poçtu ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi, çox sürətli inkişaf yolu keçib və öz fəaliyyətinin ÜPİ-nin müəyyən etdiyi beynəlxalq standartlar səviyyəsində qurulması istiqamətində

QƏBƏLƏ səsi

qəzetinə

2025-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*



Payız lövhələri

# İTMİŞDİR

Qəbələ rayon Böyük Pirəli kənd sakini **Məmmədcanov Cavad Kamran oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Yenikənd kənd sakini **Şərifov Mikayıl Yaqub oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Baş redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149 VÖEN: 4402717261

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 900